

Allahverdi Eminov

# Tarixin qayıdışı: facialər və dəhşətlər

## (Telman Orucovun yaradıcılığı haqqında düşüncələrim)

**Mənim ensiklopedik informasiyaya malik və mənimsədiklərini yazıya alıb geniş oxucu auditoriyasına çatdıran Telman Orucovla "üçüncü" görüşüm olacaq-dır. Belə bir planım yox idi, onun nüfuzlu "525-ci qəzet"də silsilə məqalələrini oxuyanda və zəngin təəssüratla ayrılanda qərarımı dəyişdim. Elmi dərəcəyə və elmi vəzifəyə sahib olmaq şərt deyil. Gizlin deyil ki, elmlər nazirləri və doktorlarımızın, habelə, professorlarımızın, akademiklərimizin sayı həndəsi silsilə ilə çoxalmaqdadır. Amma Vətən elmimiz yerində saymaqdadır. Sovet dönəmindən sonrakı 20-25 il civarında Yusif Məmmədəliyev, Azad Mirzəcanzadə, Validə Tutayuq, Cəbrayıl Hüseynov, Əhməd Seyidov, Firudin Köçərli, Feyzulla Qasımzadə, Əbdüləzəl Dəmirçizadə yetişməmişdir. Mən bu cərgəyə həmyerlimiz, azərbaycanlı Lüt-vi-Zadəni də məmuniyyətlə daxil edərdim. Professorlarımız, akademiklərimiz məhsuldar işləyirlər, saysız elmi məqalələr, kitablar çap etdirirlər, eləsi var hər həftədə, hər ayda geniş həcmli məqalələr, hətta kitablar ortaya qoyurlar.**

*(Əvvəli ötən sayımızda)*

Macar diplomatı Dyerd Banlakinin, keçmiş Amerika prezidenti, mərhum Ri-çard Niksona söylədiyinə görə, İkinci Dünya müharibəsi dövründəki həmin kon-fransların birində Stalin Çörçilli şam yeməyinə dəvət edir. Burada onlardan başqa, Stalinin tərcüməçisi iştirak edir. Onlar gecə saat üçə qədər yeyib - içirlər, axı ikisi də "bayquş" hesab olunurdu, gecə oyaq qalmağı sevirdilər. Səhər saat 11-də öz iqamətgahında yuxudan ayılan Çörçill çox mütəəssir olur ki, görəsən, bu tipə mən gecə nələr söyləmişəm. Tez katibini çağırdırıb, bu məktubu diktə edir: "Hörmətli marşal Stalin! Mən dünən axşamkı şamdan çox böyük həzz aldım. Güman edirəm ki, bizim müzakirə etdiyimiz və razılığa gəldiyimiz məsələlər barədə də bunu demək olar". Bir saat sonra o, Stalindən cavab məktubu alır. O yazırdı: "Hörmətli cənab Baş nazir! Dünən axşam nə danışmağınız haqqında narahat olmayın. Mən də sərxoş idim". Məktubun sonuna bu sözlər əlavə edilmişdi: "Tərcüməçi güllələn-mişdir".

Tarixi şəxsiyyətlərin insanların başına gətirdikləri dəhşətlərin mahiyyətində onların özləri "günahkardır", necə ki, U.Çörçill istisna olmaqla Lenin də, Stalin də "öz əcəlləri ilə" ölməmişlər. Tarixdə bu şəxslərin taleyi barədə məlumatlar xalqa təhrif şəklində çatdırılmışdır. V.Lenin milyonlarla insanı "İnqilab bayrağı" altında üsyana hazırladı. Güllə yarası almış Lenin sonralar "dəlilik" dərəcəsinə gəlmiş, be-yin iflicinə tutulmuşdur. Ömriylə qırdırdığı insanların "ahı" idi. Mixelson zavo-dunda aldığı güllə yarası öz təsirini göstərmişdi, az sonra insult oldu, dili tutuldu.

V.İ.Lenin 20-ci illərdəki vəziyyətinə aydınlıq gətirən Telman Orucov tarixi faktlara əsaslanaraq qeyd edir ki: 1923-cü ilin əvvəlində, əslində, Corc Vaşinqto-nun "Vida məktubu"na bənzəyən, vəsiyyət tipli sənədi Lenin imzalamışdı. Bu məktubunda o, özünə kimin varis olacağını bildirməmişdi, Siyasi Bürodakı öz si-lahdaşlarının istedadları ilə yanaşı, nöqsanlarını da göstərmişdi. İ.V.Stalin 1922-ci ildə partiyada yeni yaranan baş katib vəzifəsinə seçilmişdi. Lenin bu vəzifəni tex-niki bir iş hesab edirdi. Stalin isə əlində böyük səlahiyyətlər cəmləşdirmişdi, parti-yadakı kadr siyasəti onun inhisarında idi və öz tərəfdarlarını yerlərdə rəhbər vəzi-fələrə irəli çəkmişdi. Ona görə də Lenin məktubunda Stalinin öz əlində böyük ha-kimiyyəti mərkəzləşdirdiyini əsas götürərək, bu vəzifənin başqasına verilməsini məsləhət görmüşdü. Ölümündən sonra keçirilən XIII qurultayda (1924-cü il) Leninin məktubu ilə qurultay iştirakçıları tanış edilmişdi. Lakin qurultay mərhum partiya rəhbərinin təklifinə qulaq asmayaraq, Stalini həmin vəzifədə saxlamışdı. Bununla da Stalin partiya aparatında rəhbərliyini möhkəmləndirmişdi və bu, inqilab xadimlərinin, Leninin silahdaşlarının təqib edilməsinə və tədricən aradan götürülməsinə yol açmışdı.

Leninin son məktubunun yaranması səbəbləri də məlum olmuşdur. Ağır xəs-tə olan Lenin Moskvadan kənarda, Podmoskovnoye Qorki adlanan kənddəki sana-toriyada qalırdı. Onun yanına getməyə Stalinin icazəsi lazım idi. Arvadı Nadejda Konstantinovna Leninin yanına tez-tez getmək istədiyindən, Stalin buna etirazını bildirmişdi və onun bu hərəkətini Krupskaya Leninə, Stalinin onu təhqir etdiyi ki-mi xəbər vermişdi. Stalinin belə hörmətsizliyi Lenini hiddətləndirmişdi və bəzi versiyalara görə belə məktubun katibəyə diktə edilməsinə gətirib çıxarmışdı.

V.İ.Lenin xəstə yatdığı Podmoskovnoye Qorkidə 21 yanvar 1924-cü ildə və-fat etdi. Onun tabutunu Moskvaya gətirdilər və orada cəsədi tələsik düzəldilmiş müvəqqəti Mavzoleyə qoydular. İ.V.Stalin bu vaxt Leninin xatirəsinə müraciətdən ibarət and xarakterli matəm çıxışı etmişdi. Sonralar Stalin "Leninizmin əsasları" adlı nəzəri əsər də yazmışdı.

Leninin şəxsi həyatı, siyasi fəaliyyəti kimi heç də uğurlu olmamışdı. Cavan-lığından ölənə qədər Nadejda Krupskaya ilə nigahda olmasına baxmayaraq, onların övladı olmamışdı. Nadejda Konstantinovna müəyyən xəstəliyinə görə ərindən daha tez qocalırdı və diqqəti cəlb etməyən bir qadına çevrilmişdi. Ona görə də Lenin ailə sədaqətsizliyindən qaça bilməmişdi. O, İsveçrədə olarkən gözəl İnessa Armanda vurulmuş və inqilabçı qadınla uzun müddət yaxınlıq etmişdi.



İnessa Armand ailəli idi, əxlaq barədə qüsurlara da malik idi. Onun altı uşağı olmuşdu, onların atalarını dəqiq müəyyən etmək də çətin idi, çünki qadın ərinin qardaşı ilə də yaxınlıq edirdi. Ancaq Lenin ona vurulmuşdu, dərin məhəbbət bəslə-yirdi. Ona görə də oğlan uşaqlarından birinin bioloji atasının Lenin olduğunu müəyyən etmək çətin deyildi. 1980-ci illərdə "Arqument i faktı" qəzeti (Bu mətbu növü 30 milyondan artıq tirajla buraxılırdı) gənc yaşlarında olan bir kişinin portretini vermişdi, o, Armandın Berlində yaşayan oğlunun şəkli idi. Bu şəkildən, elə bil ki, gənc Lenin adama baxırdı. O, atasına xas olan dəbdə geyinmişdi, iri alnı, batıq gözləri, səliqəli bığı və çənəsinin uzunluğunu örtən saqqalı var idi. Övladın atasına belə çox oxşamasına nadir hallarda rast gəlmək olur, elə bil ki, oğlu deyil, bu, onun klonu idi. Lakin Lenin özünün bastard oğlunun mövcudluğunu etiraf edə bilməzdi, bu, onun nüfuzuna ağır təsir göstərərdi. Həm də Lenin Aleksandra Kol-lontayın o vaxtlar azad sevgi barədəki "bir stəkan su" nəzəri ideyasını bəyənmirdi, möhkəm dövlət üçün möhkəm ailənin mövcud olmasının tərəfdarı idi. Ona görə də ölənə qədər doğma oğlunu etiraf etməkdən yayınmışdı.

V.İ.Lenin və onun silahdaşları heç cürə monorxiya dövlətini yaratdıqlarını etiraf etmirdilər. 1918-ci ilin 17 iyulunda gecə iclas çağrıldı. II Nikolayı, arvadı, bir sözlə, ailəsi MİK-nın sədri Y.Sverdlovun göstərişiylə güllələndilər, təbii ki, V.İ.Leninin razılığı ilə. Bu, tarixi qətldi. Ümumiyyətlə, Lenin zatən kütləvi ter-rorun təşəbbüsçüsü və təşkilatçı idi, bu hərəkətindən zövq alırdı. O, hakimiyyəti naminə istənilən qanun pozuntusuna gedirdi, 1920-ci ildə İrkutskda məhkəmənin qərarı olmadan general A.V.Kolçakı güllələdilər. Böyük yazıçı M.Qorki Leninin haqqında yazmışdı: "Onun üçün fəhlə sinfi dəmirçi üçün filiz deməkdir".

Telman Orucov bu maraqlı faktı da oxucuların nəzərinə çatdırmışdı: Meksi-ka rəssamı Dieqo Rivera milyader Rokfellerin sifarişi ilə Nyu-Yorkda divara çəkdiyi freskaya Leninin portretini əlavə etmişdi. Bundan narazı qalan sifarişçi onu pozmağı tələb edəndə rəssam Rivera işini yarımçıq qoyub Nyu-Yorku tərk etmişdi.

**Tədqiqatçı - tarixçi, publisist qələmə malik Telman Orucov yazır ki, Dün-yaya hökmranlıq iddiası ilə hakimiyyətə gələn kralların, hökmdarların, prezident-lərin törətdikləri fəlakətləri: faciələri və dəhşətlərilə sonuclanır. Məsələn, Qədim Roma** sərkərdəsi Qay Yuli Sezar əraziləri işğal edib, qan çayı axıtdı. Qara Mitridat Yevpator 80 min adamı öldürdü. Böyük Aleksandr (e.ə. IV əsrdə) dahi sərkərdə Poru məğlubiyyətə uğratdı. Amma döyüşlərdə qələbəyə imza atan Teodora, I Fran-siska, I Elizabeta, Corc Vaşinqton, Horatsio Nelson, III Napaleon, müasirlərimiz sayılan Y.Çorçill, İ.Stalin, Mao Tszedonu xatırlamağa dəyər. Torpaq iddiasında olan erməni vandalistləri 44 günə ağır məğlubiyyətlə qarşılaşdıran Azərbaycan Prezidenti İlham Əliyev qaliblər cərgəsində adını əbədiləşdirmişdir! İlham Əliyev bu hərbi uğura eyni zamanda ləyaqəti və iradəsi, strategiyası ilə nail olmuşdur! Dərsliklərdə və kitablarda "unudulan" bu sərkərdələrdən Por (e.ə. IV əsr), Teodora (IV əsr), III Napaleon (XIX əsr) haqqında Telman Orucov konkret informasiya vermişdir.

Yeni Dünyanın tiranları nə qədər qəddar və müharibə tərəfdarları olsalar da, İnsan gözəlliyinə laqeyd deyildilər. Onlar anlayırdılar ki, İnsan qadın vurğunu və cazibədarlığın yaradıcısıdır.

Barokko yeni ədəbi və incəsənət cərəyanı yaradıldı, VII əsrin son rübündə İtaliyada başlamışdı, Avropaya yayıldı. Barokko üslubu haqqında Azərbaycanda demək olar ki, heçnə yazılmamışdır, professor Məmməd Qocayev istisnadır. Tel-man Orucov Dünya ədəbiyyatının bilicisi kimi, Barokko haqqında geniş məlumat vermiş, cərəyanın mahiyyətini işıqlandırmışdır: Telman Orucov dərin məlumatı ilə bu cərəyanın görkəmli nümayəndələrindən Raul Rubensin (1577-1640), Lorentso Beminin (1598-1680), Rembrant van Reynin (1606-1669), Berta Morizonun (1841-1895) Bin Qoqun (1853-1890) və başqaların yaradıcılığını təhlil edir, şəxsi fikirlərini oxucularla bölüşdürür.

Tədqiqatçı - araşdırıcı, obrazlı üsluba malik Telman Orucov məqalələrində insan gözəlliyini tərənnüm etmiş, onu yaradıcı simasında vurğulamışdır. Əlbəttə, bu yanaşma onun şəxsiyyətindən irəli gəlir, intellekti ilə emosional əhvalı ilə har-moniya yaradır. Telman Orucov Təbiəti sevən, həyatı təbiətdən ayırmayan insan-dır. Təsadüfən yazmamış ki, insan təbiət gözəlliyinə valeh olmuşdur, ona görə də dağlar, çaylar, dənizlər, meşələr yazarların vəsf obyektinə çevrilmişdir, insanla təbiət arasında gözəlliyi yaratmaq "yarışı" gedir, təbiət isə həmişə udmuşdur. Ümid edirik Telman Orucov gənclik eşqi ilə oxucuları bundan sonra da sevindirəcəkdir.